Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
04 iyul 2020-ci il №63 (3606)


# Diaspora işində türkdilli xalqların əməkdaşlığına nail olmalıyıq



**Türkiyədə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları zəngin bir tarixə malikdir. Ötən əsrin əvvəllərindən bu günə qədər çoxsaylı Azərbaycan diaspor təşkilatı qardaş ölkədə fəaliyyət göstərmiş və hazırda da göstərməkdədir. Türkiyənin Xaricdə Yaşayan Türklər və Əqrəba Toplulukları qurumunun (YTB) rəhbəri Abdullah Eren mətbuata açıqlamasında Azərbaycan və Türkiyə diaspor təşkilatlarının bərabər işləmə mexanizminin önəmindən və görülən işlər barədə danışıb.**

**O bildirib ki, ermənilər hələ də özlərinin uydurduğu qondarma "soyqırımı"nın tandılması üçün davamlı işlər görməkdədir:** "Türkiyənin Avropada xeyli sayda diaspor təşkilatı var. Diaspor təşkilatları son zamanlar Avropda milli şüur ideyasına xidmət edir. FETÖ ("Fətüllahçı terror təşkilatı") ilə mübarizədə həm də ermənilərin "qondarma soyqırımı"na qarşı mübarizədə təkcə Türkiyə deyil, eləcə də Azərbaycan diaspor təşkilatlarının da fəaliyyəti bizim üçün çox önəmlidir. "Bir millət, iki dövlət" anlamı hər iki ölkənin diasporu üçün də keçərli olmalıdır. Təsadüfi deyil ki, Berlində təşkil etdiyimiz aksiya zamanı həm Azərbaycan səfirliyi, həm Azərbaycan diaspor təşkilatlarının rəhbərləri iştirak etdilər. Bundan başqa, Avropa və ABŞ-da olan QHT-lərin biri-birini tanıması və yaxından əlaqə yaratması üçün bir sıra toplantılar təşkil etdik. Amma hələ ki, bu addımlar başlanğıcdır və bu işləri daha təkmilləşdirəcəyik".

**A.Eren qeyd edib ki, Azərbaycanın Ermənistan tərəfindən işğal edilmş torpaqlarının geri qaytarılması və Türkiyənin PKK-ya qarşı mübarizəsinin dünyaya çatdırılmasında, Avropadakı türk dərnəklərinin yalqız buraxılmamasında hər iki ölkənin diaspor təşkilatları əlaqələri genişləndirməyə çalışır:** "Türkiyə toplumu Avropada xeyli sayda QHT-yə sahibdir. Biz Azərbaycan Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbəri Fuad Muradovla da qarşılıqlı iş birliyi və əlaqələrimizi genişləndirmək məqsədi ilə müqavilə bağlamışıq. Fuad Muradov diaspor işinə çox böyük mücadilə verir və bunun nəticələrini görürük. Və düşünürəm ki, bundan sonra əlaqələr daha da sıx inkişaf edəcək".

**Son illər Türkiyənin diaspor fəaliyyəti xeyli genişlənib. Azərbaycanın da bu fəaliyyət istiqamətinin genişlənməsindən gözləntiləri böyükdür. ABŞ hər zaman qondarma "soyqırımı" məsələsini müzakirəyə çıxaranda azərbaycanlılar etiraz etdiyi kimi, türklər də Qarabağ məsələsində eyni mövqeyi sərgiləyirlər. Məsələyə münasibət bildirən YTB rəhbəri qeyd edib ki, erməni diasporunun Azərbaycan və Türkiyə diasporunu sıxışdırmaq üçün beynəlxalq səviyyədə istifadə etdiyi arqumentlərə qarşı həmişə akademik səviyyədə mübarizə aparmaq lazımdır:** "Türkiyə diaspor təşkilatlarının daha çox olduğu ərazilər Qərbi Avropa ölkələri - Almaniya, Avstraliya, Belçika, Fransa və Hollandiya kimi ölkələrdir. Azərbaycan diasporunun daha

*"Bir millət, iki dövlət" anlamı Azərbaycan və Türkiyə diasporu üçün də keçərli olmalıdır*

geniş yayıldığı ölkələr arasında isə Rusiya və ABŞ yer alır. Avropadakı problemlərə baxanda irqi ayrıseçkilik, islamafobiyanın şahidi oluruq. Xüsusilə, müsəlmanlara olan ayrıseçkiliyə qarşı Azərbaycan diaspor təşkilatı ilə zaman-zaman mübarizə aparmışıq. Erməni diasporunun Azərbaycan və Türkiyə diasporunu sıxışdırmaq üçün beynəlxalq səviyyədə istifadə etdiyi arqumentlərə qarşı həmişə akademik səviyyədə mübarizə aparmaq lazımdır. Avropada küçədə toplantı edib aksiya keçirmək də vacibdir, amma eyni zamanda səsimizi eşitdirmək üçün bələdiyyələrdə, həmin ölkələrin parlamentlərində ermənilərin törətdiyi əməlləri ictimaiyyətə və siyasətçilərə çatdırmalıyıq. Hesab edirəm ki, əsas məsələ dediyim kimi rəsmi qurumlarda, dövlət səviyyəsində etiraz etməkdir. Baxmayaraq ki, erməni diasporu yüz ildir fəaliyyətdədir, amma həm biz, həm də Azərbaycan diaspor təşkilatları artıq onlarla eyni və daha artıq səviyyədə işlər görə bilirik".

**A.Eren bildirib ki, bu işdə əsas məqsədlərdən biri də qonşu ölkələrlə barış səviyyəsində yaşamaqdır:** "Ermənilərə, eləcə də İspaniyadan qovulan yəhudilərə zamanında Osmanlı dövləti himayədarlıq edib. Yəni əvvəldən biz barış içərisində müxtəlif millətlərlə bərabər yaşamışıq. Əgər biz indi də öz aramızda birlik və sabitliyi qorumağı bacarsaq xaricdə də problem yaşamarıq".

**YTB rəhbəri koronavirusla mübarizədə həm Türkiyə, həm də Azərbaycanın çox yaxşı nümunə sərgilədiyini də deyib:** "Dünya ölkələrinə nisbətdə biz xəstəlikdən bu qədər müddət ərzində çox az itki ilə çıxmağı bacardıq. Ölkə xaricində olan virusa yoluxan vətəndaşlarımızın ölkəyə gətirilib müalicə edilməsi məsələsinə Türkiyə bu dövr ərzində xüsusi həssaslıqla yanaşdı. Bütün dünyada yaşayan türklərə qucaq açdıq. Türkiyədə qalan azərbaycanlı tələbələrə yaxından dəstək göstərildi və bu dəstək daimi olaraq davam etdiriləcək".

Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin (ATXƏM) sədri İlham İsmayılov isə hesab edir ki, tək qardaş Türkiyə ilə deyil, bütün türk xalqlarının diaspor təşkilatlarının birliyinə nail olmaq üçün gələcəkdə bütün gücümüzü səfərbər etməliyik. O əlavə edib ki, türkdilli xalqların əməkdaşlığının genişləndirilməsi və Azərbaycanın əsas problemi olan Dağlıq Qarabağın işğal altında olduğunu, Ermənistanın Azərbaycana təcavüzünü bütün türk dünyasına çatdırılması fəaliyyətin prioritet istiqaməti olmalıdır.

ATXƏM sədri qeyd edib ki, türk dövlətlərinin birliyi nə qədər möhkəm, nə qədər güclü olsa hər bir ölkə öz milli maraqlarını bir o qədər uğurla müdafiə edə bilər. O vurğulayıb ki, rəhbərlik etdiyi mərkəz Dağlıq Qarabağ probleminin türk dünyasında tanıdılması işinə sistemli olaraq yanaşmaqdadır.

**İ.İsmayılov deyib diaspora işi elə bir sahədir ki, bu məsələdə böyük maliyyə qaynaqlarının olması əsas şərtdir:** "Bu baxımdan yanaşsaq, ölkə xaricində yaşayan istənilən imkanlı soydaşımızın diaspora işinə cəlb olunması olduqca vacibdir. Torpaqlarımızın erməni işğalı altında olduğunu və Dağlıq Qarabağ həqiqətlərinin təbliğ olunmasında diasporamızın hansı işləri görə biləcəyinə nəzər salsaq görərik ki, bu məsələdə biz həm də koordinasiya olunmuş şəkildə hərəkət etməliyik. Bakıda keçirilən Dünya Azərbaycanlılarının dördüncü qurultayında prezident İlham Əliyev də bu məsələlərə xüsusi olaraq toxundu və diasporamız üçün əsl hədəfləri göstərdi. İstənilən halda hansısa bir ölkədə diaspora təşkilatı yaranırsa buna ancaq sevinmək lazımdır. Sadəcə bir qədər zaman lazımdır ki, biz yaranan həmin təşkilatların kimlərə və nəyə xidmət etdiklərini də görə bilək. Əgər bir təşkilat milli maraqlarımıza xidmət etməyəcəksə onun uzun müddət yaşaması da sual altında olacaqdır. Mən hesab edirəm ki, istənilən halda diaspora təşkilatlarımız Azərbaycanın iç siyasətinə qarışmaqdansa, Azərbaycan xalqının maraqlarını yaşadıqları ölkələrdə daha yaxşı bir şəkildə təmsil etməlidirlər. Və biz artıq diaspora təşkilatlarımızın parçalanmasından yox, onların birliyindən danışmalıyıq. Çünki qarşımızda təşkilatlanmış və olduqca hiyləgər bir erməni lobbisi və diasporası ilə qarşı-qarşıyayıq".

Cavanşir QƏDİMOV

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi**

Məqalə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilib